# Sarsılmaz güc, yüksək inkişaf birlikdədir

## Azərbaycan türk dövlətləri sırasında önəmli mövqeyə sahibdir

**Zamanın axarında sürətlə dəyişən, qloballaşan dünyanın dəyişməyən məqamları var. Gələcək dediyimiz gəlib keçdikcə, yeni sabahlara üz tutduqca, əslində, keçmişimizdən çox da uzaqlaşmırıq. İnsanların həyatında, ölkələrin müqəddəratında olduqca əhəmiyyətli rol oynamış hadisələr tarixə çevrilir, yaddaşlarda, arxiv materiallarında qalır. Əcdadlarımız kimlər olub? Öz həyatlarını necə yaşayıblar? Özlərindən sonra gələn nəsillər üçün nələri miras qoyublar? Bu sualların cavablarını əsrlərin tufanlarının, təlatümlərinin belə yerli-dibli silməyə, itirməyə gücü yetməmiş tarixi faktlar verir.**



Tariximizin hansı səhifəsinə baxsaq, tədqiq etsək, araşdırsaq, görərik ki, əcdadlarımız öz əməlləri ilə bizi qürurlandırıblar. Onların çox ağır, çətinliklərlə, ziddiyyətlərlə dolu dövrlərdə də milli kimliklərini unutmamaları, mərdliklə, cəsarətlə, ləyaqətlə zamanın təlatümlərinə sinə gərmələri, haqqı, ədaləti uca tutmaları iftixar doğurur.

Dünyanın ən qədim xalqlarından olan türklərin qəhrəmanlığını müxtəlif dövrlərin nişanələri olan dünya və ölkə əhəmiyyətli saysız-hesabsız abidələr də təsdiqləyir. Tarix, mədəniyyət yaratmaqla yanaşı, onu yaşatmağı, qoruyaraq nəsildən-nəslə ötürməyi də yaxşı bacaran türkəsilli xalqlara məxsus həmin abidələr onu da sübut edir ki, türk xalqları min illər boyu geniş coğrafi ərazilərdə yaşayıblar.

Zamanın çoxdan sübut etdiyi və bu gün bütün türk xalqlarının çox yaxşı bildikləri bir həqiqət də var - sarsılmaz güc də, yüksək inkişaf da birlikdədir. Sevindiricidir ki, türk dövlətləri bu birliyin daimi və səbatlı olması na səy göstərirlər. Təqdirəlayiqdir ki, bu gün sevincimiz də, kədərimiz də birdir. Bunu 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində baş verən Vətən müharibəsində tarixi qələbə qazanaraq Qarabağ və Şərqi Zəngəzur ərazilərini işğaldan azad edəndə, 2023-cü ildə lokal xarakterli antiterror əməliyyatı apararaq suverenliyimizin tam bərpasına nail olanda gördük. Azərbaycanın möhtəşəm Zəfəri bütün türk dünyasını sevindirdi.

Türkiyədə meşə yanğınları başlayıb getdikcə ciddi təhlükəyə çevriləndə, eləcə də dəhşətli zəlzələ baş verəndə türkiyəli qardaşlarımız ilk dəqiqələrdən xalqlarımız arasında mənəvi bağlılığın möhkəmliyinin, vacibliyinin şahidi oldular. Təbii fəlakətlərin evindən, isti ocağından məhrum etdiyi türkiyəlilərə dərhal maddi yardımlar göstərməyə başladıq. Türk dövlətləri sırasında önəmli mövqeyi olan Azərbaycanın peşəkar xilasediciləri özlərini fəlakət baş vermiş yerlərə yetirdilər və sonadək əllərindən gələn köməyi göstərdilər. Çünki Prezident İlham Əliyevin ötən il iyunun 6-da TÜRKPA-nın nümayəndə heyətini qəbul edərkən bildirdiyi kimi, Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir: "Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması - bunlar, böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük".

Türk dövlətləri ilə münasibətlərin daha da möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Sözügedən görüşdə də dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı türk dünyasının gücləndirilməsi, türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub.

Ötən il iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə dövlətimizin başçısı türk ölkələri ilə əlaqələrin genişləndirilməsinin, türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqaməti olduğunu bir daha vurğuladı. Bildirdi ki, Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin, Macarıstanın Baş naziri Viktor Orbanın, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevin iştirakı ilə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Şuşada keçirilməsi rəmsi məna daşıyırdı. Bu görüşdə qardaş ölkələrin rəhbərləri öz birliklərini Azərbaycanın otuz ilə yaxın Ermənistanın davam etdirdiyi işğaldan azad etdiyi mədəniyyət paytaxtında göstərdilər. Zirvə görüşündə Türkiyə Prezidentinin Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentlərinin Şuşa və Füzuliyə, Qırğızıstan Prezidentinin Füzuli və Ağdama səfərlərini xatırladan Prezident İlham Əliyev türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərlərini qardaşlıq həmrəyliyinin təzahürü kimi dəyərləndirdi.

Xatırladaq ki, bu təşkilatın - Türk Dövlətləri Təşkilatının türk dövlətlərinin birliyinin, əməkdaşlığının güclənməsində fəaliyyəti təqdirəlayiqdir. Həmin görüşdə dövlətimizin başçısı İlham Əliyev dedi: "Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır".

Bu il aprelin 9-da ADA Universitetində təşkil olunan "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda isə dövlətimizin başçısı İlham Əliyev vurğuladı ki, bizi tarix, etnik köklər, dil oxşarlıqları, mədəniyyət və adət-ənənələr birləşdirir və biz təşkilatı daha güclü və nəticəyə yönələn təşkilat kimi görmək istəyirik. Bu məqsədlə Azərbaycan əlindən gələni edir. Düşünürəm ki, üzv dövlətlər arasında qarşılıqlı fəaliyyət baxımından çox yaxşı mühit var".

Diqqətə çatdıraq ki, Türk Dövlətləri Təşkilatı bu il yenidən Azərbaycanda toplaşacaq. Belə ki, cari ildə təşkilatın rəsmi və qeyri-rəsmi olmaqla iki Zirvə görüşünün keçirilməsi nəzərdə tutulmuşdu. Qeyri-rəsmi sammit mayın 20-21-də Macarıstanın paytaxtı Budapeştdə keçirildi. Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə isə bu ilin oktyabrında Bakı evsahibliyi edəcək. Beləliklə, türk dünyası ölkələri arasında əməkdaşlığın möhkəmlənməsi istiqamətində növbəti addımlar ölkəmizdə atılacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 23 avqust (№ 177).- S.8.